# Milli-mənəvi dəyərlərimiz və müasir dövr

Sözlərimi ulu öndərimizin məşhur statı ilə başlamaq istərdim: Azərbaycan Qafqazda və Qafqaz ətrafında, Mərkəzi Asiyada yerləşən, İslam dininə mənsub, olan xalqlar içərisində öz mədəniyyətini ümumbəşəri dəyərlərlə, Avropa mənəvi dəyərlərini, Avropa mədəniyyətləri ilə zənginləşdirmiş ən qabaqcıl ölkədir". Həqiqətən Azərbaycan dünyaya inteqrasiya edən, öz mədəniyyətini dünya mədəniyyəti ilə sintez etməyi bacaran ən qabaqcıl dövlətlərdən biridir ki, biz bununla fəxr etməliyik.

Milli dəyər nədir? Bu milli şüurun, milli ruhun toplumudur. Ümumiyyətlə mənəviyyat insanın daxili dünyasının göstəricisi- yəni özünüdərkidir. Özünü dərk edən insan hər şeyi görə, hiss edə, həll edə bilir və s. Özünü kəşf edə bilənlər onlara həvalə edilənləri uzun müddət yaşada bilirlər ki, belə insanlara mənəviyyatı zəngin olan millət nümayəndələri deyilir.

Əslində milli adət-ənənələr millətin yaratdığı, uzun illərin toplumu olan milli xəzinəmizdir. Buna daxildir: dil, din, namus, Vətən, millət və dövlət Milli dövlət olmadan milli sərvətləri də tam qoruyub saxlamaq çətindir.

Elə götürək yetmiş illik sovet dövlətinin tərkibində yaşayan Azərbaycanımızı. Milli-mənəvi dəyərlərimizi eroziyaya uğratmaq üçün qeyri-millətlərdən olan rəhbərlər nələr etməmişlər?! Məscidlərimiz yerlə yeksan edilmiş, dindar adamlara amansız divan tutulmuş, ziyarətgahlara getmək qadağan edilmiş, dini və bədii sərfətlərimiz yandırılmış, müqavimət göstərənlər isə uzaq Sibirə sürgün edilərək məhv edilmişdir.

Milli-mənəvi dəyərlərə münasibət əslində ailədən başlayır. Yəni dünyaya göz açan körpə ilk dəfə özünün varlığını ailədə təsdiqləyir. Ona dili, dini ilk əzəl ailədə öyrədir və aşılayırlar. Əxlaq, tərbiyyənin ilkin mərhələsi də ailədən başlayır. Ailə əslində özlüyündə kişik bir dövlətdir. Bu dövlətin özünə məxsusluğuna uyğun milli-mənəvi dəyərlər formalaşır. Açılışını versək: böyüyə hörmət, kiçiklərə qayğı, ana dilinə münasibət, dini dəyərlərin formalaşması, milli ruh, Vətənə münasibət, qadına hörmət və ehtiram, milli bayramlarımız, mövsümi şənliklərimiz, toy ənənələrimiz, elmə təhsilə münasibət, ataanaya məhəbbət, dostluq və qardaşlıq dəyərləri, tolerantlıq, dinlərə və qeyri millətlərdən olanlara münasibət məhz ilk olaraq ailədə təməlini tutur. Odur ki, milli-mənəvi dəyərlərimizin təməl daşları ailədə qoyulur desək yanılmarıq. Tək dəyərlərin qorunub yaşanmasında, gələcək nəsillərə ötürülməsində də ailə müstəsna rol oynayır.

Milli-mənəvi dəyərlərimizin formalaşmasında ikinci mərhələ məktəblərdə davam etdirilir. Milli-mənəvi sərvətlərə yiyələnməkdə məktəbin rolu əvəzedilməzdir. Belə ki, şagirdlər elm öyrənirlər, birgəyaşayış qaydalarına yiyələnirlər. Vətənə münasibət, davranış mədəniyyəti, əxlaq, milli hiss, milli dəyər, dini münasibətlər daxili dünyamızda öz həllini tapır. Müstəqil yaşam vərdişləri qazanırıq və s.

Milli-mənəvi dəyərlərin zənginləşməsində üçüncü mərhələ universitet, ordu, yaxud ictimai mühitdə yaşadığımız üçün əmək prosesində davam edir. Kollektivçilik özü milli dəyərlərimizin bir hissəsidir. İctimai mühit tam yetişməmiş şəxsiyyətlərin sonradan püxtələşməsində mühüm rol oyna bilər. Ümumiyyətlə əməyə bağlı insanlar, milli duyğulara yiyələnməkdən də kənar da qalmamağa çalışırlar.

Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Radiyo, televizor, kompüter və internetin tüğyan etdiyi bir zamanda milli-mənəvi dəyərləri qoruyub saxlamaq çox çətinləşib. Sosial şəbəkələrdəki azad, nəzarətsiz yazışmalar, "Tik-tok" kimi müxtəlif proqramların özünə intişar tapması, illər boyu qoruyub saxladığımız davranış mədəniyyətinə, əxlaqımıza, böyük-kiçik münasibətlərinə ciddi ziyan vurduğuna diqqətsiz yanaşırıq. Dünyaya inteqrasiya bir çox millətlərdən lazımsız adətlərin ölkəmizə daşınmasına şərait yaradır ki, bu da islam dünyasına etiqad edənlərin dedikləri ilə ziddiyyət təşkil etdiyindən təréddüdlər meydana gəlir. Belə ki, həqiqətən, böyüklərə hörmətdə, qadınlara münasibətdə, şənliklərin keçirilməsində əvvəlki illərə münasibətdə çatların əmələ gəlməsinin şahidi oluruq. Məsələn, əvvəllər yaşlılar avtobusa minəndə cavanlar mütləq onlara yer verərdilər. İndi hətta məktəblilər belə əllərində telefon, qulaqcıqların da səsindən heç kimi görmürlər kimi yaşlılara, qadınlara yer verməyib telefonla oynayırlar. İrad bildirdikdə isə deyirlər ki, rahat getmək istəyən taksi ilə getsin. Toy məclislərimiz də əvvəlki dadını-duzunu itirib. Toylarımız indi maddiyyat toplamaq vasitəsinə çevirilib, bir də icki məclisinə. Amma əvvəllər kənd əhli payız toylarını həsrətlə gözləyərdilər. O vaxt toylar iki gün olardı. Cavanlar da, yaşlılar da , qız və gəlinlər də oynamağa vaxt tapıb istirahət edib şənlənər, deyib gülərdilər. Həmçinin dini bayramlarımızı: həm Ramazan, həm Qurban bayramını. Novruzu xalq həsrətlə gözləyərdi. Bu bayramlar həqiqi mənada insanları bir-birinə yaxınlaşdırar, mehribanlaşdırardı.

El iməclikləri əl əməyini nə qədər yüngülləşdirərdi. Ev tikəndə kənd toplaşar, iməcliklərlə işi tezləşdirərdilər. El məclisində ağsaqqallar həmişə başda oturar, gənclərə məclisin necə aparılmasını öyrədərdilər. Bax, belə məclislərdə dilimizin, dinimizin qorunmasından söhbətlər salınar, namus, şərəf, ucalıq məsələlərinə toxunmaqla, Vətəni qorumaq hamının borcudur, bu müqəddəs işdir anlamı ilə her şeyə son qoyulardı.

"Kitabi-Dədə Qorqud" dastanında belə bir anlam verilib: "Torpağı qorumursansa, əkmə, əkirsənsə, onu qorumalısan"

Milli-mənəvi dəyərlərimizdə nə qədər aşımalar olsa belə, 44 günlük Vətən müharibəsi göstərdi ki, Vətən müqəddəsdir və onu qorumaq hamının borcudur. Gənclərimiz elə bir Zəfər tarixi yazdılar ki, dünya heyran qaldı. Dahi şairimiz N.Gəncəvi yazdığı kimi:

**Dəmiri aynatək parladan insan,**
**Pası silməlidir öz vicdanından.**

Bəli, Vətən fədailərimiz pası öz vicdanından qanları ilə sildilər.Üç min şəhid versək də, torpaqlarımızı azad edib, başımızı dik tuta bildik.

Dahiyənə deyilmiş fikirdir. Sözümün canı odur ki, milləti formalaşdıran onun dili, dini və milli adət-ənənələridirsə, ifitxar hissi ilə deyə bilərik ki, Prezidentimiz milli dövlətimizin keşiyində çox sayıqlıqla dayanıb.

Ən problemlisi isə odur ki, geyim tərzində açıq-saçıq Avropa mədəniyyətinə meyl həddindən ziyadə çoxalıb. Bu isə yaşlı nəsli çox narahat etdiyi kimi, milli geyimlərimizin unudulması bizi həddindən ziyadə qüssələndirir. Qız və gəlinlərimizin çox qısa geyimi, əslində islam adət-ənənələrinə də uyğun gəlmir.

Bu cür açıq-sacıqlıq ciddi əxlaqi pozumlara gətirib çıxarır. Demək istədiyim odur ki, bu faktlarla mübarizədə dövlətlə xalqın birliyi mütləq lazımdır. Gənclər təşkilatı çox ciddi işləməlidir. Bağçalarda bu sahədə müəyyən işlər görülməlidir. Yerli istehsal müəssisələrimiz milli geyim mallarının satışı və təbliği ilə ciddi məşğul olmalıdır.

Milli dəyərlərimizin qorunması ümumxalq işidir. Burada hər kəsin öz məsuliyyəti var - ailənin, uşaq bağçalarının, məktəb, iş yerləri və ictimai mühit və el qınağının.

Əminəm ki, hər bir insan öz abır-həya, namus və şərəfini, vətənini qoruduğu kimi milli adətlərimizi də qorumağa borclu olur və bunu borc bilməlidir. İnanıram ki, elmi-texniki tərəqqinin pik nöqtəyə çatdığı zamanımizin nəbzini tutaraq, milli ənənələrimizə sahib çıxacaq və onları qorumağı bacaracağıq. Milləti millət edən, onu dünyada tanıdan mənəvi irsi: ədəbiyyatı, tarixi, incəsənəti, musiqisi, dini və milli dəyərləridir. Onlara hörmət etmək, yaşatmaq gələcək nəsillərə ötürmək millətimizin müqəddəs borcudur.

**Fəxrəddin BABABƏYLİ,**
**təqaüddə olan müəllim.**

# Maarifləndirmə tədbiri

Qəbələ Rayon İcra Hakimiyyəti, rayon təhsil sektoru, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin dəstəyi, "İkinci Nəfəs" və "Ülkər" Psixologiya Mərkəzlərinin təşkilatçılığı ilə "Aprel-Autizm maarifləndirməsi ayı" ilə bağlı "Autizm Spektr pozuntusu yaşayan şəxslərin cəmiyyətə inteqrasiyası" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə ümumi təhsil müəssisələrinin psixoloqları, məktəbəqədər təhsil müəssisələrinin müdir və tibb bacıları iştirak etmişdir. 2008-ci ildən etibarən BMT-nin qərarı ilə aprel ayı bütün dünyada Autizm Maarifləndirmə ayı, 2 aprel isə Autizm Maarifləndirmə Günü olaraq qəbul olunmuşdur.




# Əbədiyaşarlıq



Bu günlərdə xalqımızın igid oğlu, vətən fədaisi, Birinci Vətən müharibəsinin şəhidi Qəbələ rayonu Tüntül kənd sakini, şəhid İlyas Məsimovun şəhadətinin 30-cu ildönümü qeyd edildi.

Qeyd edək ki, şəhidin həyat yoldaşı Gülər Məsimova şəhidimizin iki övladını böyüdərək bu gün onun xatirəsini uca tutaraq elə-obaya nümunə olmuşdur. Belə igid, milli mentalitetə uyğun,əsil azərbaycanlı ana və qadın adına layiq xanımlarla fəxr edirik.

Allah şəhidlərimizə rəhmət eləsin. Amin.

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**

# Tarixi günlər silsiləsindən




Ümümdünya Kitab və Müəlliflik Hüququ Günü 1995-ci ildə UNESCO tərəfindən təsdiq edilmişdir. Həmin gün dünya ədəbiyyatında simvolik tarixdir.

UNESCO kitabları və müəllifik hüququnu təbliğ etməklə yaradıcılığın, mədəni müxtəlifliyin və bütün fəaliyyət sahələrində biliklərə bərabərhüquqlu əlçatımlığın tərəfdarı kimi çıxış edir,kitab işinin və qiraətin təşviqinə kömək edir.

Ənənəvi olaraq hər il UNESCO bu gün münasibəti ilə geniş ictimaiyyətə müraciət edir.

2024-cü il 23 aprel tarixində Əqli Mülkiyyət Agentliyi və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə 23 Aprel-Ümumdünya Kitab və Müəllifik Hüququ Günü münasibətilə "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Qərbi Azərbaycan torpaqları nədən bəhs edir" mövzusunda konfrans keçirilir.

23 Aprel - Uilyam Şekspir, Migel Servantes, İnka Qarsilaso dela Veqa kimi bir sıra görkəmli ədiblərin vəfat etdiyi gündür.

**Toplayanı:**
**Natəvan YUSIBOVA,**
**Xırxatala kəndi.**

# Ürək ağılla güclüdür

Sevgi insan həyatında xoşbəxt yaşamın özülüdür İlk ana sevgisi ilə başlanan hisslər insan yaşa dolduqca müxtəlif formada onun duyğu və düşüncələrində öz təzahürünü tapır. Lakin qəlbin çırpıntıları ilə gənclikdə başlanan sevgi hissləri tam başqadır. Bu insanın tamlığı, gələcəyi, həyatı, məqsəd və arzularının həyata keçirilməsi, bütün sevgilərinin tam təsdiqi olan könül dünyası sevgisidir. Yad bir insanın qəlbində yer tutması, bir həyatın başlanğıc simvoludur bu sevgi... Bu sevgidə vəfa, sədaqət, ismət, namus, qürur-dəmək olar ki, əsil məhəbbəti təzahür etdirən bütün amillər birləşməlidir. Birləşməlidir ki, əsil sevgi təzahür etsin.

Vətənə canını fəda edənlər sevgi fədailəri sayılır. Sevdiyi insanın yoxluğuna təkamül etməyənlər də sevgi fədailəridir. İlham və Fərizələr sevgi və sədaqətin rəmzi deyilmi?! Bu günlərdə rayonumuzun Bum qəsəbəsində nişanlısının 1 ay əvvəl avtomobil qəzasında rəhmətə getdiyi və təyin edilmiş toy günündə özünə qəsd edərək dünyasını dəyişməsi xəbərini eşitdik. Baş verən hadisə də saf və ülvi sevgidən, sədaqətdən, vəfadan irəli gəlmədimi?! Əlbəttə bu hadisəni heç də dəstəkləmir, təbliğ etmirik. Baş vermiş faciədən sonra o gənc qızı bir müddət nəzarətdə saxlamalı, onun psixologiyasına müsbət təsirlər olmalı, onun vəfa və sədaqət rəmzini başqa formaya yönləndirmək lazım idi... Ancaq bu, ailəsini, əzizlərini mənəviyyatını alçaldan bəzi üzdən iraq sevgi arxasınca gedən insanlara ən bariz nümunə; sevgi nümunəsi olmalı və mənəviyyatını qoruyaraq əsil sevgi dünyasını qiymətləndirmək və dərk etmək üçün bir səda olmalıdır. O səda ki, orada sevgi, sədaqət, vəfa var!...

Kaş ki, gənc Bəhruzə öz sevgisini ürəklə ağılın birgə gücü ilə təzahür etdirərdi! Əziz gənclər, düşüncə tərzinizi ağlınızın gücünə, ağsaqqal və ağbirçəklərimizin öyüd və nəsihətlərinə kökləyin!

**BİBİXANIM.**